KREDO

№ 34 (1290) 25 noyabr 2025-ci il



**_Namiq HADİ_**

*Əli Rza Xələflini düşünərkən:*

***Əlbəttə nizam haqq olacaq, nəzm pozulmuş,***
***Məhşər gününə çünki tərazu çəki getdi.***

## Qəzəl

Xoş niyyətini bildirir arizdə təvazö,
Əlbət ki, çox aydın görünür düzdə təvazö.

Peyğəmbər ədalətli şah əyyamı doğuldu,
Kaş hökm edə hər Xosrov Pərvizdə təvazö.

Ta əhli-riya məscidə məğrur təki girsin,
Adət budur onlarda qürur, bizdə təvazö.

Olsaydı müyəssər ağıla astarı görmək,
Bir kimsəni aldatmaz idi üzdə təvazö.

Elmindən açılmış gül əməl ətrini duydum,
Məftun elədi könlü bu nərgizdə təvazö.

Haqq oldu qəza qoymadı bülbül gülə yetsin,
Cəh-cəhdə kibr gizlidir, dilsizdə təvazö.

Hadi, belə mövzun təbi bəxtin ələ vermiş,
Kəşf etdi Xələflini bu Hörmüzdə təvazö.